UOT 76
https://doi.org/10.59849/2311-8482.2025.1.329

ŞƏMSİYYƏ ZALOVA*

# TEATR RƏSSAMLIĞIMIZIN İNKİŞAFINDA NOVATOR SƏNƏTKAR-ƏZİM ƏZİMZADƏ

*Azərbaycan təsviri sənətinə misilsiz töhfələr bəxş edən Əzim Əzimzadənin satirik qrafika sahəsindəki yorulmaz fəaliyyətindən danışarkən onu da qeyd etməliyik ki, rəssam fitri istedadı, səmərəli əməyi sayəsində realist təsviri sənətin forma rəngarəngliyinə hərtərəfli yiyələnmiş, özünün çoxşaxəli istedadını səhnə tərtibatı sahəsində də nümayiş etdirmişdir. İstedadlı rəssam, yaradıcılığının ana xəttini təşkil etməsə də, teatr sahəsində də ustalıqla fəaliyyət göstərib. Onun "Leyli və Məcnun", "Şeyx Sənan", "Ölülər", "1905-ci ildə", "O olmasın, bu olsun" və digər teatr səhnələrimizi şöhrətləndirən tamaşalar üçün hazırladığı dekorasiya və geyim eskizləri Azərbaycan rəssamlığının bu sahəsindəki inkişafına böyük təkan vermişdir.*

**Açar sözlər:** *Təsviri sənət, rəssam, Əzim Əzimzadə, teatr-dekorasiya*

## Giriş:

Təsviri sənətimizin inkişafındakı rolu C.Məmmədquluzadə və M.Ə.Sabirin Azərbaycan ədəbiyyatının inkişafındakı rolu ilə eyniləşdirilən Ə.Əzimzadənin rəsm çəkməyə olan marağı hələ uşaq yaşlarında özünü büruzə vermişdi. M.Nəcəfov qeyd edir: "Bir hadisə Əzimin xatirində ömürlük iz buraxmışdı: Bir dəfə yoldaşlarından biri mollaxanaya bir qutu rəng gətirmişdi. Əzim ilk dəfə idi ki, rəng görürdü. Ona görə də, hər şeyi unudub, qutudakı rənglərə tamaşa etmişdi. Tüllabın "nalayiq hərəkətinə" göz qoyan molla özündən çıxmış, rəngləri ondan almış, əlinə də bir-iki çubuq vurmuşdu. Həmin gündən başlayaraq Əzim hətta mollaxanada belə əlinə fürsət düşən kimi şəkil çəkirdi [6, s. 4].Rus-tatar məktəbində təhsil aldığı illərdə Ə.Əzimzadə rəsm çəkməklə yanaşı digər fənlərə də xüsusi həvəs göstərirdi. "Mənim səfərim" adlı əlyazmasında uşaqlıq illərini xatırlayan rəssam qeyd edir: "Məktəbimizin müdirinə dedim: Mirzə, hərgah mümkünsə bir qutu su rəngi, tuş, karandaş, qalın kağız alınız, mən oxuduğumuz hekayələri tərsim edim, ta ki məktəbimizdə oxuyan şagirdlər üçün maraqlı keçsin. O, mənim bu fikrimi çox bəyəndi və dediyim ləvazimatı aldı. Şəkilləri hazırladım. Şəhər məktəblərinin şagirdləri dəstələrlə bizim məktəbə gəlib tamaşa edirdilər" [6, s. 5].

Qeyd olunduğu kimi, Ə.Əzimzadə hələ məktəb illərində rəsm çəkir, sevdiyi ədəbi əsərlərə illüstrasiyalar yaradır, əyani vəsaitlə bağlı müəllimlərinə kömək edirdi. Vurğulamalıyıq ki, Ə.Əzimzadə xüsusi rəssamlıq təhsili almamışdır. Lakin buna baxmayaraq o, Bakıda tacir Ağabala Quliyevin evinin divarlarını bəzəyən rəssam Durovdan dərs almış, yağlı boya texnikasına yiyələnmiş, böyük səylə rəsm çəkmə qabiliyyətini təkmilləşdirmişdi [6, s. 7].

## Əsas təhlil

Milli mədəniyyətimizin tərəqqi tarixində müstəsna xidmətləri olan Ə.Əzimzadə qrafika, plakat, illüstrasiya, teatr tərtibatı kimi bir çox sahədə novator rəssam kimi tanınmışdır. Rəssamın yaradıcılıq təcrübəsi satirik qrafika sahəsində püxtələşmiş olsa da, o, təsviri sənətin qeyd olunan janr və növlərində də işləmiş, ideya-bədii cəhətdən kamil əsərlər ortaya çıxarmışdır. Ə.Əzimzadənin yaradıcı siması, özünəməxsus üslubu və dəsti-xətti məhz "Molla Nəsrəddin" jurnalında formalaşmış, rəssamlıq məharəti burada daha da təkmilləşmişdi. Bədii dilin səlisliyi, kəskinlik rəssamın satirik qrafika sahəsində hərtərəfli istedadını üzə çıxarırdı. Lakin istedadlı rəssam, yaradıcılığının ana xəttini təşkil etməsə də, teatr sahəsində də ustalıqla fəaliyyət göstərirdi. Onun teatr tamaşaları üçün hazırladığı dekorasiya və geyim eskizləri Azərbaycan rəssamlığının bu sahəsindəki inkişafına böyük təkan vermişdi. Bir çox incəsənət müəssisələrinə rəhbərlik edən rəssam dövlət teartlarının yaranması və fəaliyyəti ilə əlaqədar olan bir sıra tədbirlərin həyata keçirilməsində yaxında iştirak etmişdi. Araşdırmalar nəticəsində məlum olub ki, 1920-ci ildə Azərbaycan Dövlət Teatrının (indiki Azərbaycan Dövlət Akademik Milli Dram teatrı) ilk tamaşası olan «Dəmirçi Gavə» nin səhnə tərtibatı və geyim eskizləri üzərində Ə.Əzimzadə işləmişdi. Eyni zamanda 1921-ci ildə Tənqid və Təbliğ

Teatrının ilk tamaşası olan «Laçın yuvası» na da bədii tərtibatı Ə.Əzimzadə vermişdi [5, s. 158]. Ə.Əzimzadənin teatr eskizləri nəqledici xüsusiyyətə malik kompozisiyalardır. Bu eskizlər obrazların emosionallığı, o zamankı məişətin təsvirindəki valehedici səmimiliyi, dəqiq konturların gücü, parlaq rəng palitrası ilə tamaşaçını məftun edir. Təsvir olunan obrazın psixologiyasına nüfuz edən, sanki onun tərcümeyi-halını canlandıran rəssamın bu eskizlərində realistik ümumiləşdirmə olduqca güclüdür.

1919-cu ildə Bakı teatrında "O olmasın, bu olsun" musiqili komediyası hazırlanan zaman Ə.Əzimzadə "Molla Nəsrəddin" jurnalında fəaliyyət göstərirdi. Ü.Hacıbəyovun təklifinə əsasən rəssam həmin tamaşaya dekor və geyim eskizləri vermək üçün dəvət edilmişdi. Bu işin öhdəsindən layiqincə gələn böyük sənətkar eyni ildə Z.Hacıbəyovun "Aşıq Qərib" operasına da bədii tərtibat vermişdi. Rəssam sözü gedən tamaşa üçün operanın əsas qəhrəmanı olan "Şah Sənəm" in, eyni zamanda "Süsən", "Pəri" kimi surətlərin rəngli eskizlərini çəkmişdi [5, s. 157]. 1921-1922-ci illərdə Ə.Əzimzadə dahi bəstəkar Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operalarına da bədii tərtibat vermiş və geyim eskizləri hazırlamışdı [5, s. 163].

Ə.Əzimzadənin bu tamaşalar üçün çəkdiyi eskizlərə istinadən deyə bilərik ki, onun rəsmlərində klassik miniatür sənətimizə xas olan incəlik və ahəngdarlıq açıq-aydın hiss olunur. Rəssam eyni zamanda milli sənət ənənələrindən də səmərəli istifadə etmişdir. Şairanə təsvirlər yaratmağa müvəffəq olan rəssam H.Cavidin eyniadlı əsəri əsasında hazırlanan «Şeyx Sənan» dramının da lirik ruhuna uyğun ifadəli və təsirli eskizlər yaratmışdı [5, s. 171].



Qeyd edək ki, hadisələrin Ərəbistan və Gürcüstanda cərəyan etdiyi tamaşanın geyim eskizləri üzərində çalışmaq rəssam üçün heç də çətin olmamışdı. Vaxtilə İraq səyahəti zamanı Bağdadda, Nəcəfdə olan rəssam ərəb tiplərini müşahidə etmiş, geyimləri, silahları, musiqi alətləri və s. atributları mükəmməl öyrənmişdi. Gürcü xalqının tarixi keçmişinə yaxından bələd olan rəssam üçün əsərdəki gürcü tiplərini - kişi və qadın libaslarını yaratmaq da qəliz deyildi. Rəssam əsas təsvirlərlə birlikdə köməkçi rəsmlər olan butafor predmetlərini də çəkməyi unutmamışdı.

Ə.Əzimzadə vaxtilə təkrar dekorlardan istifadə edən Azərbaycan teatrlarına həm orijinal, həm də bədii keyfiyyətləri ilə fərqlənən tərtibat verirdi. Rəssam tərtibat eskizləri üzərində çalışarkən bəzən klassik miniatür irsimizə müraciət edir, bəzən isə fərqli bir yolla gedərək yaradıcılığında yenilik meyllərini gücləndirirdi. Rəssam hər bir tamaşanın ruhuna uyğun canlı boyalar tapır, milli musiqilərimiz ilə səsləşən təsvir elementlərindən bacarıqla istifadə edirdi. Bu isə öz növbəsində rəssamın iti müşahidəsinin və təxəyyül gücünün nəticəsi idi. O, təsvirlərində surətin daxili məzmunundan danışıb, zahiri təmtəraqdan, süni dekorativlikdən yayınırdı.

Fanatik "Molla Nəsrəddin"çi olan rəssam məşhur "Danabaş kəndinin müəllimi" əsərinin də səhnə tərtibatı və geyim eskizləri üzərində işləmiş, öz yaradıcı düşüncəsi ilə mühitin mənzərəsini qüsursuz şəkildə əks etdirə bilmişdi.

C.Məmmədquluzadənin dostu və məsləkdaşı olan sənətkar 1932-1933-cü illərdə görkəmli ədibin "Ölülər" komediyasının tərtibat işləri üzərində isə rəssam R.Mustafayevlə çiyin-çiyinə çalışmış, tamaşa üçün teatr-dekorasiya işindən əlavə, satirik səpkili xarakterlər silsiləsi də yaratmışdı[5,s.163-169]. .

Daima yenilik axtarışında olan Ə.Əzimzadə 700 şəkildən ibarət "Tarixi və müasir geyimlər albomu" tərtib etmək fikrinə düşmüşdü. Onun fikrincə, albom respublikanın dövlət teatrlarında fəaliyyət göstərənlər üçün faydalı vəsait ola bilərdi [5, s. 159]. Ə.Əzimzadə istər tarixi, istərsə də məişət mövzusunda hazırlanan eskizləri tam şəkildə əks etdirir, dolğun surətlər yaradırdı. Yaradılmış hər bir obraz rəssamın böyük müşahidə qabiliyyətindən və mövzu barədə çox məlumatlı olmasından xəbər verirdi. Teatr sənətinin zəngin ənənələrinə yaxından bələd olan rəssam həm akvarel, həm də sadə karandaş ilə tipajların yaradılmasında bənzərsiz sənətkar olduğunu hər dəfə sübut etməyi bacarırdı. 1925-1926-cı illərdə Bakıda 1-2 pərdəlik pyeslər kitabçalar şəklində çap edilərək mədəni-maarif müəssisələri və səhnə həvəskarları arasında yayılırdı. Teatr rəhbərlərinə, rejissor və aktyorlara dəstək məqsədi ilə bu kitabçalara geyim eskizləri və tamaşanın quruluş planı da əlavə edilirdi.




Ə.Haqverdiyevin "Padşahın məhəbbəti", S.S.Axundovun "Eşqin nəticəsi", Ə.Qəmərlinskinin "Usta Qəmbər, yaxud Loğman" və s. kimi tamaşalar əsasında hazırlanan kitabçalar üçün eskiz və tərtibat planlarının çəkilməsi işində də görkəmli rəssam Ə.Əzimzadə canla-başla çalışmışdı. Haqqında danışılan eskizlərin ölçüsü çox kiçik olsa da, tiplərin zahiri görkəmində əlamətdar olan bütün detallar yerli-yerində verilmiş, yüksək bədii keyfiyyətlər üstünlük təşkil etmişdir [5, s. 167].

Ə.Əzimzadə eskizini hazırladığı hər tamaşada personajların hər birinin geyimindən əlavə bir də qriminə fikir verir, surətlərin xarakterini açmaq üçün müvafiq ifadə vasitələrindən istifadə edirdi. Rəssamın hər tamaşa üçün rəsmini çəkdiyi personajlar adi eskiz çərçivəsində qalmır, bədii surətlər səviyyəsinə yüksəlirdi. Bu baxımdan onun "Tiplər qalareyası" ndan da söz açmağa ehtiyac var.
Bu qalareyadan danışarkən ən parlaq nümunə olaraq rəssamın "M.F.Axundovun tipləri" adı ilə məşhur olan təsvirlərini göstərmək olar. Rəssam hər biri beş portretdən ibarət olan rəsmlərdə "Molla İbrahim Xəlil kimyagər", "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah" komediyalarının əsas personajlarını təsvir etmişdir. Öz üslubuna bu dəfə sadiq qalmayan rəssam tipləri şarj şəklinə salmamış, həyati xarakterlər kimi qələmə vermişdir [5, s. 178]. Təsvir vasitələrinin geniş spektrindən istifadə edən Ə.Əzimzadə bu eskizləri ilə bir növ tipajlar qalereyası yaratmış oldu. O, qəhrəmanlarını yaradıcı sürətdə təsvir etməyə çalışır, obrazların ruhunu anlamaqda tamaşaçıya yardım edirdi. O zamanlar Bakıda nəşr olunan "Sənayei nəfisə" jurnalında incəsənətin müxtəlif sahələri üzrə görülən tədbirlərdən, yazıçı, rəssam, aktyorların fəaliyyətindən söz açılırdı. Jurnal Ə.Əzimzadənin rəssamlıq fəaliyyəti ilə əlaqədar olan bir sıra yazıların rast gəlindiyi qiymətli mənbə idi. Məcmuədə eyni zaman-

da qeyd olunmuşdu ki, həmin vaxtlar H.Z.Tağıyev teatrının bərpa işləri zamanı binanın foyelərindəki divar rəsmlərini çəkmək işi rəssam Arapovla birlikdə Ə.Əzimzadəyə tapşırılmışdı [5, s. 159].

Digər bir yazıda oxuyuruq: "Yay aylarında Əzimzadə, Arapov, Qorodetskidən ibarət üçlük təmir olunan Azərbaycan Dövlət Dram Teatrının interyeri üçün divar rəsmlərinin planını hazırlamışlar. Tavanı, səhnə pərdəsini, foyelərin divarlarını və koridorları bəzəyəcək rəsmlərin eskizləri çəkilib qurtarmışdır. Azərbaycan əfsanələrinə uyğun miniatür təsvirlərini Əzimzadə böyük məharətlə yerinə yetirmişdir. Bu, son zamanlar yaradılmış çox maraqlı bədii əsərlərdən biridir və təəssüf ki, bu vaxta kimi göstərilməmişdir. Hazırda teatrın divar rəsmləri icra olunacaq iş planından çıxarılmışdır və eskizlər eskiz olaraq qalacaqdır. Elə etmək lazımdır ki, bu eskizlər incəsənət şöbəsinin dəftərxanalarında itib-batmasın, muzeyə verilsin [5, s. 160]. Bütün bunlar onu deməyə imkan verir ki, Ə.Əzimzadənin teatr sahəsindəki fəaliyyəti tamaşalara tərtibat və geyim eskizləri verməklə məhdudlaşmayıb.

Ə.Əzimzadə Azərbaycan Dram Teatrının ədəbi-bədii hissəsinə rəhbərlik etmiş, bir çox dramaturqla bilavasitə tanış olmuşdu. Dramaturgiyaya böyük maraq göstərən Ə.Əzimzadə bu sahədə də özünü sınamış və "Mirzə Rza Kirmani" adlı faciə yazmış, əsərin teatr səhnəsindəki bədii tərtibatını da məhz elə özü vermişdi. Rəssam faciənin əlyazması üçün çəkmiş olduğu üz qabığında əsərin baş qəhrəmanlarının portret təsvirlərini verməyi də unutmayıb [5, s. 165].

**Nəticə**

Ə.Əzimzadə teatr rəssamlığı tarixinə öz fərdi yaradıcılıq siması və üslubu ilə daxil olmuş, bu sahədəki axtarışların güclənməsinə təkan vermişdir. Onun teatr sahəsində əldə etdiyi bu uğurlar bir daha sübut edir ki, böyük sənətkar bütün yaradıcılığı boyunca bir an belə mübariz fırçasını yerə qoymayıb. "1905-ci ildə", "Ağa Məhəmməd şah Qacar", "Çərxi-fələk", "Qaranlıqdan işığa, "Yazıya pozu yoxdur", "Uçurum", "Aydın" və digər tamaşaların tərtibatı və personajlarını səciyyələndirən eskizləri, milli koloriti, naxışları, bəzəkləri ilə nəzəri cəlb edən qabil rəssam yüksək bədii forma və zəngin rəng hissiyatına malik sənətkar olub. Düşünürük ki, xüsusi rəssamlıq təhsili almamasına baxmayaraq, Azərbaycan xalqının görkəmli mədəniyyət xadimləri arasında özünəməxsus yer tutan Ə.Əzimzadə peşəkar səhnə tərtibatçısı səviyyəsinə qalxmağa müvəffəq olub, milli teatr-dekorasiya sənətimizin inkişafında müstəsna rol oynayıb. Təsviri sənətin digər sahələrində olduğu kimi, teatr rəssamlığı sahəsində də Ə.Əzimzadə ənənələri bir məktəb kimi qiymətlidir. Uzun illərdir ki, Azərbaycanın teatr rəssamları istedadlı sənətkarın surətlər qalareyasından öyrənir, onun yaratmış olduğu geyim eskizlərindən istifadə edirlər.

## ƏDƏBİYYAT

1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 157 s.
2. Əzimzadə Əzim. Bakı: Sərvət, 2013, 104 s.
3. Həbibov N. Azərbaycan Sovet rəssamlığı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 186 s.
4. Kərimov K, Əfəndiyev R, Rzayev N, Həbibov N. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 338 s.
5. Nəcəfov M. Əzim Əzimzadə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, 207 s.
6. Nəcəfov. M. Əzim Əzimzadə. Bakı: İşıq, 1980, 66 s.

***AMEA Naxçıvan Bölməsi**
***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***
***E-mail: wems.zal@mail.ru***

**Shamsiya Zalova**

**AN INNOVATOR IN THE DEVELOPMENT OF THEATRE PAINTING-
AZIM AZIMZADE**

Speaking about the tireless activity of Azim Azimzade in the field of satirical graphics, who made an unprecedented contribution to the fine arts of Azerbaijan, we should also note that, thanks to his innate talent and fruitful work, the artist thoroughly mastered the diversity of forms of realistic

fine art, and also demonstrated his multifaceted talent in the field of stage design. The talented artist has also worked skillfully in the field of theather, although it is not the main focus of his work. His sketches of scenery and costumes for performances such as "Leyli and Majnun", "Sheikh Sanan", "The dead", "In 1905", "If not that one,then this one" and others, which glorified our theater stages, gave a great impetus to the development of Azerbaijani painting in this area.

**Keywords:** *fine art, artist, Azim Azimzade, theatre-decoration*

**Шамсия Залова**

## АЗИМ АЗИМЗАДЕ – НОВАТОР В РАЗВИТИИ НАШЕГО ТЕАТРАЛЬНОГО ИСКУССТВО

Говоря о неустанной деятельности Азима Азимзаде, внесшего неоценимый вклад в искусство Азербайджана, в области сатирической графики, следует также отметить, что благодаря врожденному таланту и плодотворной работе, художник всесторонне овладел формовым многообразием реалистического изобразительного искусства, проявил свой многогранный талант и в области сценического оформления. Хотя талантливый артист не сформировал основную линию своего творчества, он также умело проявил себя в области театра. Большой толчок дали развитию азербайджанского искусства в этой области его декорации и эскизы костюмов к спектаклям «Лейли и Меджнун», «Шейх Санан», «Мертвецы», «В 1905 году», «Не та, так эта» и др., прославившим сцены нашего театра.

**Ключевые слова:** *Изобразительное искусство, художник, Азим Азимзаде, театр-декорация.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**